# "Azərbaycan ruzigarı" Türkiyə teleməkanında



*Hər bir insan özünü dərk etdikdən sonra qəlbindəki arzu və xəyalları da özü ilə bərabər böyüməyə başlayır. İnsan xəyalındakı arzusuna çatmaq üçün həyatın çətin sınaqlarından keçmək məcburiyyətində qalır...*

Xəyallarını gerçəkləşdirmək üçün qardaş Türkiyəyə üz tutan həmyerlimiz Səidə Əjdərqızı da uşaqlıq arzularının çin olması üçün bu ölkəyə gəlib. Türkiyəyə gəlməkdə məqsədi Azərbaycanın mədəniyyətini, ədəbiyyatını, incəsənətini, mənəvi dəyərlərini və xalqımızın ağrı-acısını Türkiyə televiziyası vasitəsilə dünyaya çatdırmaqdır. Səidə Əjdərqızı Ömərova daha çox Səidə Ömər kimi tanınır. O, 1986-cı ildə Bakı şəhərində anadan olub. 1993-cü ildə Elşad Yəhyayev adına 56 saylı tam orta məktəbdə təhsil alıb. 2004-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsinin Kinorejissorluq bölümünü qırmızı diplomla bitirib. Azərbaycan Xalq artisti tanınmış kinorejissor Oktay Mirqasımovun tələbəsi olub. 2018-ci ildə İstanbul Universitetinin Jurnalistika fakültəsinin "Radio Televiziya Kino" bölümünün magistraturasını bitirib.

Türkiyədə keçirilən "23 Nisan Çocuk" festivalında dəfələrlə iştirak edib. İstanbul-Türkiyə-Azərbaycan Dayanışma və Kültür Dərnəyinin üzvüdür.

Səidə Ömər hazırda Türkiyədə Bengü Türk Televizisiyasında "Azərbaycan ruzigarı" adlı proqramının müəllifi və aparıcısıdır. Teleproqram Türkiyə efirində görünməyə başladığı gündən tamaşaçılarda böyük rəğbət qazanıb. Həftədə bir dəfə Türkiyə tamaşaçılarının görüşünə gələn "Azərbaycan ruzigarı" proqramında xalqımızın qədim adət-ənənələri, milli musiqilərimiz, Dağlıq Qarabağ, 20 Yanvar faciəsi , Xocalı soyqırımı ilə bağlı silsilə verilişlər nümayiş etdirilir. Proqrama dəvət alan hər iki ölkənin dövlət xadimləri, tanınmış elm adamları, millət vəkilləri və ziyalıları sözügedən proqramın Azərbaycan-Türkiyə münasibətlərində böyük rol oynadığını müsbət qiymətləndirirlər.

***İstanbul AK Parti millət vəkili, Azərbaycan Türkiyə Dostluq parlamentinin sədri Şamil Ayrım (Ankara):***



Azərbaycan-Türkiyə qardaşlığı qədim tarixə söykənir. Bu qardaşlığı daha da möhkəmləndirmək üçün hər birimiz əlimizdən gələni etməliyik. Həftədə bir dəfə Türkiyə tamaşaçılarının görüşünə gələn "Azərbaycan ruzigarı" proqramı öz dəst-xətti ilə Türkiyədə yayımlanan proqramlardan çox fərqlənir. Deyərdim ki, bu veriliş Azərbaycan və Türkiyənin hər baxımdan siyasi, iqtisadi, mədəni əlaqələrini özündə əks etdirən bir telekörpüdür. Mövzuları ilə hər iki ölkə üçün önəmli olan bu proqram qısa zamanda Türkiyə və Azərbaycan seyrçilərinin qəlbinə yol tapdı. **Bu proqrama mən də qonaq oldum. Sözümün əvvəlində Qarabağ mövzusunu dilə gətirib - Türkün türkdən başqa dostu yoxdur** -deyərək hər zaman can qardaşlarımızın yanındayıq dedim. Bu önəmli proqramın yayımlanmasına imkan yaradan "Bengü Türk" televiziyasının rəhbərliyinə və Azərbaycan Diasporunun Dəstək Fonduna xüsusi təşəkkür edir, proqramın müəllifi və aparıcısı olan Səidə Ömərə uğurlar arzulayıram.

***Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkir (İstanbul):***




"Azərbaycan" söyləyəndə ürəyim başqa cürə döyünür. Müqəddəs türk torpaqları olan Azərbaycana ayaq basdıqda özümü vətənimdə olduğum kimi eyni hissləri keçirirəm: Çünki biz eyni acıları yaşamış bir millətik. Naxçıvanda keçirdiyim hisslər isə bir başqadır, çünki atam Kazım Qarabəkir Paşanın ayaq izləri var orada. "Azərbaycan ruzigarı", həqiqətən Türk dünyası birliyi üçün çox önəmli bir verilişdir. Bu proqram vasitəsilə Azərbaycanın zəngin keçmişi, tarixi, mədəniyyəti ilə tanış olub, yaşadığı sıxıntılarını bilmək imkanımız yaranır. Böyük Türk Sərdarı Mustafa Kamal Atatürkün sözlərindən ilhamlanaraq demək istəyirəm ki, "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdi".

***Azərbaycan Prezident Kitabxanasının Şöbə müdiri Dr.Nazim Mustafa (Bakı):***

"Azərbaycan ruzigarı" proqramı Azərbaycanı və azərbaycanlıları Türkiyədə daha yaxından sevdirən, könülləri isidən ruzigar kimidir. Bu proqrama Azərbaycandan millət vəkili Şahin İsmayılov , Gənclər və İdman nazirliyinin əməkdaşları, Virtual Qarabağ İKT Gənclər İctimai Birliyinin sədri Nurəddin Mehdiyevlə birgə qonaq olmaq şərəfinə nail olduğum üçün özümü şanslı hesab edirəm. Ssenari müəllifi olduğum "İrevan, Gizlenen gerçekler" filminin türkcə variantının təqdimini məhz ilk dəfə "Azərbaycan ruzigarı" proqramı gerçəkləşdirdi. Səidə Ömərin təqdim etdiyi "Azərbaycan ruzigarı"nın qonaqlarının hər biri Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsinə xidmət edən tanınmış simalardır. Bu proqram Azərbaycan tarixini, mədəniyyətini, görkəmli azərbaycanlı sənətçilərini tanıtmaq və təbliğ etmək sahəsində müstəsna xidmət göstərir. Çəkdiyi zəhmətə görə Səidə xanım Öməri mübaliğəsiz olaraq qardaş Türkiyədə Azərbaycanın mədəniyyət elçisi adlandırmaq olar.

***AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri, siyasi elmlər doktoru, yazıçı, publisist Sabir Şahtaxtı (Ankara):***

Bakını mənə sevdirən Azərbaycan ruzigarıdı ki, İstanbuldan Azərbaycanı sevdirir. Bakını küləyindən sevdim. Heç kim təəccüblənməsin bu sözümə. Təxminən 30-40 il bundan əvvəl "Vosxod" və yaxud "Qorizont" televizorlarında Bakı bulvarından çəkilən möhtəşəm kadrları seyr edəndə bulvarda gördüyüm insanların bəxtəvər çöhrəsi, Xəzərdən əsən küləyə davam gətirməyib yellənən geyimlər, sifətlərə dağılan saçları görəndə mənə elə gəlirdi ki, haqqında söz açdığım bu külək bəxtəvərlik gətirir. Nəhayət, həyatımın Bakı hissəsi başladı və mən, doğrudan da bir




vaxtlar xəyallarımda olan küləklə üz-üzə qaldım və onu daha dərindən sevməyə başladım. Bakı küləyi ilə üz-üzə qalanda ona olan sevgim tamam başqaydı... 2014-cü ildən başlayaraq həyatımın Türkiyə hissəsi davam edir. Doğma vətən qədər şirin olan Türkiyə mənə çox əzizdir. Amma Azərbaycan deyil, indi qardaş ölkədə daha bir sevimli küləklə yol yoldaşıyıq. Bu "Bengü Türk" Televiziyasının ən sevimli proqramlarından olan "Azərbaycan ruzigarı"dır. Tanınmış telejurnalist Səidə Ömərin layihəsi əsasında həyata vəsiqə qazanan bu proqramın qonağı olmaqdan məmnun oldum. Amma məmnunluğum təkcə bununla bitmir. "Azərbaycan ruzigarı" sözün əsl mənasında Türkiyənin efir məkanında Azərbaycanı yaşadır. Bəli, heç zaman unutmaram. İlk dəfə olaraq 20 Yanvar faciəsi ilə bağlı gördüklərimi və bildiklərimi bu proqram vasitəsilə tamaşaçılarla geniş şəkildə canlı olaraq bölüşmək imkanım oldu. Hər dəfə bu proqramda Azərbaycanla bağlı yayımlanan verilişləri seyr edəndə qeyri-ixtiyari olaraq uşaqlıq çağlarımda Bakı küləyini görmək arzularımı xatırlayıram. Bir vaxtlar Bakını mənə sevdirən bu ruzigar indi İstanbuldan Azərbaycana əsir. Keçib getdiyi hər bir məkana milli toxumlar səpir. Onları cücərdir və hər yerə Azərbaycan ətiri yayır.

***Araşdırmaçı, yazar Cumhur Turan (İstanbul):***



"Bengü Türk" televiziyasında iki ildən çoxdur yayımlanan "Azərbaycan rüzigarı" qısa zamanda sevilən programlardan biri olub. Proqramı peyk vasitəsilə dünyanın hər yerindən izləmək mümkündür. "Azərbaycan Ruzigarı"nın müəllifi və aparıcısının əməyi danılmazdır. Onun istər klassik ədəbiyyat, istər xalq yaradıcılığı və digər sahələrdə seçdiyi mövzular tək Azərbaycanı deyil, bütün Türk Dünyasını yaxından maraqlandırır. Bir sözlə, "Azərbaycan ruzigarı"nı Azərbaycanımızın, ümumən Türk Dünyamızın uğuru hesab etmək doğru olar.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**